UNEC

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

BAKI - 2019

“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.”

Ümumimilli lider, Heydər Əliyev

“Ölkəmizin çox uğurlu inkişaf dinamikası var. Kadr hazırlığı, mütəxəssislər, peşəkarlar əlbəttə ki, bu dinamikaya əlavə güc verəcək. Ona görə, təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır.”

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Baş Redaktor
Fariz Əhmədov

Hazırladılar
Aytən Hüseynli
İlqar Seyfullayev
İlkin Məmmədov
Neman Muradlı
Cəbrayıl Vəliyev
Kənan Dadaşov
Orxan Quluzadə
Davud Əliyev
Anar Süleymanov
Asya Cəfərova

Redaktə etdi
Yaşar Kəlbiyev
Sevda Hüseynova
Elşən Əliyev

Dizayner
Xəyal Bayramov

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),Bakı, 2019
Dizayn və çap: Aloprint MMC

MÜNDƏRİCAT

MƏRKƏZ DİREKTORUNUN MESAJI	**5**
KAFEDRA MÜDİRİNİN MESAJI	**6**
UNEC	**7**
BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ	**9**
● Mərkəzin strukturu	**10**
● Mərkəzin missiyası	**11**
● Mərkəzin məramı	**11**
● Mərkəzin dəyərləri	**12**
● Niyə BMDM?	**13**
MƏRKƏZİN STRATEJİ MƏQSƏD VƏ HƏDƏFLƏRİ	**14**
İQTİSADİYYAT VƏ İDARƏETMƏ KAFEDRASI	**16**
BMDM-də TƏDRİS PROSESİ	**17**
● Dərs prosesi	**19**
● Təcrübə prosesi	**20**
● İmtahan prosesi	**21**
TƏDQİQAT İŞİNİN APARILMASI	**22**
DİSSERTASİYA MÖVZUSUNUN VƏ ELMİ RƏHBƏRİN SEÇİLMƏSİ	**23**
DİSSERTASİYA İŞİNİN HAZIRLANMASI PROSESİ	**24**
DİSSERTASİYA İŞİNİN MÜDAFİƏSİ PROSESİ	**25**
TƏDQİQAT MƏRKƏZLƏRİ	**26**
KARYERA İMKANLARI	**27**
İŞ DÜNYASI İLƏ ƏLAQƏLƏR	**27**
İNKLÜZİV TƏHSİL	**28**
MƏRKƏZİN TƏRƏFDAŞ OLDUĞU KONFRANSLAR VƏ JURNALLAR	**28**
MƏRKƏZİN BEYNƏLXALQ ƏLAQƏLƏRİ	**29**
● Mübadilə proqramları	**29**
● İkili diplom proqramları	**30**
● Əcnəbi magistrantlarımız	**31**
SOSİAL TƏDBİRLƏR	**32**
7/24 KİTABXANA	**33**
BMDM ƏMƏKDAŞLARI	**34**
● BMDM-in rəhbərliyi	**34**
● BMDM-in katibliyi	**34**
● BMDM Könüllüləri	**36**
İQTİSADİYYAT VƏ İDARƏETMƏ KAFEDRASININ ƏMƏKDAŞLARI	**37**
● Kafedra müdiri	**37**
● Proqram rəhbərləri	**37**
● Professor-müəllim heyəti	**38**
● Tədris-köməkçi heyət	**44**
● Saat hesabı müəllimlər	**44**
MƏRKƏZDƏKİ İXTİSASLAR	**50**
● Biznesin təşkili və idarə edilməsi	**51**
● Dövlət və bələdiyyə idarəetməsi	**52**
● Dünya iqtisadiyyatı	**54**
● İqtisadiyyat	**57**
● Kommersiya	**61**
● Maliyyə	**63**
● Marketinq	**66**
● Menecment	**68**
● Mühasibat uçotu və audit ixtisası	**70**
● Sənayenin təşkili və idarə edilməsi	**72**
● Statistika	**74**
ƏLAVƏLƏR	**76**
BMDM HAQQINDA FİKİRLƏR	**86**

MƏRKƏZ RƏHBƏRİNİN MESAJI

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi (“BMDM”) UNEC-də son illərdə aparılan sistemli və ardıcıl islahatların həm əhəmiyyətli bir hissəsi, həm də uğur göstəricisidir. Bu il BMDM ölkəmizə özünün ilk məzunlarını təqdim edəcək və onlara gələcək fəaliyyətlərində böyük uğurlar arzu edəcəkdir. Qısa müddət ərzində BMDM magistr təhsilinin təşkili və gənc tədqiqatçıların yetişdirilməsi istiqamətində bir çox yeniliklərə imza atmış, universitetin və ölkənin akademik həyatında yaxından və fəal iştirak etməyə çalışmışdır.

UNEC-in təşəbbüsü ilə iqtisadiyyat ve idareəetmə ixtisasları üzrə beynəlxalq təcrübəyə əsaslanan, ali təhsli pilləsinin magistratura səviyyəsi üzrə yeni təhsil standartları hazırlanmış və Azərbaycan Respublikası Təhsil Nazirinin əmri ilə təsdiqlənmişdir. Keyfiyyətli tədqiqatların aparılması, gənc tədqiqatçıların yetişdirilməsi üçün mərkəzdə tədqiqat mərkəzləri qurulmuş, magistrantlara ölkənin nüfuzlu dövlət və özəl sektor qurumlarında sifarişli tədqiqat aparmaq imkanları yaradılmış, dünyanın nüfuzlu universitetlərinin məzunları BMDM-in tədqiqat və tədris prosesinə cəlb olunmuşdur. Magistrantlarımız beynəlxalq elmi konfranslarda uğurla iştirak edir və elmi əsərlərini dərc etdirirlər. Bu il BMDM-in dörd magistrantının məqaləsi dünyanın ən nüfuzlu elmi bazası olan “Web of Science”-da nəşr olunmuşdur.

Eyni zamanda, magistrantlarımız dünyanın müxtəlif ölkələrində mübadilə proqramlarında iştirak edərək təhsillərini davam etdirir və tədqiqatlar aparırlar.

Sizə təqdim olunan bu vəsait UNEC BMDM-in qısa müddət ərzində əldə etdiyi nailiyyətləri, dəyərləri, həmin nailiyyətlərə və dəyərlərə əsaslanaraq təklif etdiyimiz imkanları və gələcək hədəflərimizi, məqsədlərimizi əks etdirir.

Məqsədimiz universitetimizdə tədrisin, tədqiqatın, ölkəmizdə isə təhsilin, akademik imkanların və kadr potensialının inkişafına ildən-ilə daha çox töhfə vermək və regionun ən qabaqcıl elmi-tədqiqat mərkəzi olmaqdır.

İndiyədək bu istiqamətdə və BMDM-in formalaşmasında iştirak etmiş, rol oynamış və köməklik göstərmiş hər kəsə təşəkkür edir və BMDM-in bütün magistrantlarına, gələcək məzunlarına və əməkdaşlarına müvəffəqiyyətlər arzu edirəm.

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru
i.ü.f.d., dosent Fariz Əhmədov

KAFEDRA MÜDİRİNİN MESAJI

Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin nəzdində fəaliyyət göstərən "İqtisadiyyat və İdarəetmə" kafedrası İqtisadiyyat, Biznesin idarə edilməsi, Dövlət və bələdiyyə idarəetməsi, Menecment, Marketinq, Dünya iqtisadiyyatı, Maliyyə, Kommersiya, Mühasibat uçotu və audit, Sənayenin təşkili və idarə edilməsi, Statistika ixtisasları üzrə magistr hazırlığını həyata keçirir. Əmək bazarının müasir tələblərinə cavab verən yüksək səviyyəli mütəxəssislərin hazırlanması və iqtisad elminin müxtəlif istiqamətləri üzrə keyfiyyətli tədqiqatçıların yetişidirilməsi kafedranın missiyasıdır.

Müasir nəzəri biliklərin ən mütərəqqi təlim metodları vasitəsilə magistrantlara çatdırılması və onların praktiki bilik və bacarıqlarının inkişaf etdirilməsi kafedranın əsas fəaliyyət istiqamətlərindəndir. Kafedranın Azərbaycan iqtisadiyyatının aktual problemlərini və iqtisad elminin müasir inkişaf meyllərini əhatə edən elmi fəaliyyəti nəzəri biliklərlə praktiki problemlərin vəhdətini təmin etməyə, magistrantlarda nəzəri biliklərin praktiki tətbiqi qabiliyyətlərinin, eləcə də tədqiqat aparmaq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır.

Kafedranın ümumiqtisadi profili iqtisad elminin ayrı-ayrı sahələrinə aid olan biliklərin sintezi, fənlərarası əlaqələrin gücləndirilməsi və magistrantlara verilən biliklərin sistemliliyinin gücləndirilməsi üçün də geniş imkanlar açır. Təcrübəli müəllim heyətinə malik olan kafedra dövlət qurumları və özəl sektorla əməkdaşlıq edir, bu qurumlarda çalışan və elmi-pedaqoji təcrübəyə malik olan mütəxəssisləri də tədris və tədqiqat proseslərinə cəlb edir. Hazırda UNEC-də yaradılan multikultural mühit kafedrada elmin, təhsilin və praktikanın vəhdət tapmasına, nüfuzlu elm ocaqları ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına, təhsil innovasiyalarına və elmi araşdırmaların aparılmasına böyük dəstək veirir.

Əminəm ki, kafedramız daim UNEC ailəsinin layiqli üzvü olacaqdır.

"İqtisadiyyat və İdarəetmə" kafedrasının müdiri
i.e.d., professor Yaşar Kəlbiyev

UNEC

1930-cu ildə əsası qoyulmuş Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ölkəmizdə ali təhsilli iqtisadçı kadrların hazırlanması məqsədi ilə yaradılmışdır. UNEC Cənubi Qafqazın ən böyük universitetlərindən biridir. Universitetdə hal-hazırda 9 fakültə, 34 kafedra fəaliyyət göstərir. Bundan əlavə, universitetdə Distant, qiyabi və əlavə təhsil mərkəzi, MBA proqramı üzrə UNEC Biznes Məktəbi, İqtisadiyyat və idarəetmə ixtisaslarında magistrantların təhsil aldığı Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, texniki ixtisaslar üzrə magistrantların təhsil aldığı Magistratura Mərkəzi də mövcuddur. Universitetdə bakalavriatura və magistratura səviyyələri üzrə, ümumilikdə, 17 min nəfərdən çox tələbə təhsil alır. Tədris prosesində iştirak edən akademik heyətə aralarında Azərbaycan Milli Elmlər Akademiyasının, Nyu-York Elmlər Akademiyasının (ABŞ) həqiqi üzvləri, Dövlət Mükafatı laureatları, əməkdar müəllimlər və elm xadimləri olan 80 professor və 314 dosent daxildir.

Ali təhsil müəssisələrinin beynəlxalq reytinq cədvəllərində öz mövqeyini yüksəltmək istiqamətində məqsədyönlü addımlar atan UNEC-in əsas məqsədi tədqiqat univeristeti kimi formalaşmaqdır. Bununla əlaqədar ciddi işlər görülməkdədir.

UNEC Böyük Britaniyanın QS Agentliyinin inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə reytinq cədvəlində 2016-2017-ci illərdə regionun 4-cü ən yaxşı iqtisadyönümlü universiteti olub.

UNEC nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artmasına və dünya elm məkanına uğurla inteqrasiya etdiyinə görə “Clarivate Analytics” şirkəti tərəfindən Web Science üzrə ən mütərəqqi universitet seçilərək, “Web of Science Awards – 2018” və “Most progressive universities in Web of Science for the last 3 years” mükafatlarını qazanıb.

Beynəlxalq reytinqlərdə mövqeyini gücləndirən UNEC yeni uğurlara da imza atıb. Belə ki, QS Agentliyinin inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə 2018-ci ilin iyun və 2019-cu ilin yanvar ayının reytinq sıralamasında UNEC “İşəgötürənlərin reputasiyası” meyarı üzrə Azərbaycanın ən yaxşı universiteti olub.

UNEC

“Webometrics” reytinqinin 2019-cu ilin yanvar ayında açıqlanan siyahısında isə UNEC “Akademik istinadlarına görə ən yaxşı universitetlər” (Transparent Ranking: Top Universities by Google Scholar Citations) meyarı üzrə ölkənin lider universiteti statusunu qazanıb.

Bütün bunlarla yanaşı, UNEC-in yüksək beynəlxalq reytinqli universitetə çevrilmək istiqamətində strateji məqsəd, hədəf və fəaliyyətləri “UNEC-100” İnkişaf strategiyasında öz əksini tapıb. UNEC nüfuzlu reytinq təşkilatları ilə əməkdaşlığı daha da artırmaqla və reytinq təşkilatlarının tələblərini universitet menecmentinin bütün pillələrində daim nəzərə almaqla 90 yaşında dünyanın ən yaxşı 1000, 100 yaşında isə ən yaxşı 500 universiteti arasında olmağı hədəfləyib.

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

Azərbaycan Dövlət İqtisad Universitetində magistratura və doktorantura səviyyəsində təhsilin keyfiyyətinin artırılması, Azərbaycan iqtisadiyyatına tədqiqatçı kadrların qazandırılması və beynəlxalq standartlara cavab verən təhsil metodlarının tətbiqi məqsədi ilə 2016-cı ildə Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi yaradılıb. Mərkəz Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 2016-cı ildə qəbul olunmuş ali təhsilin yeni magistratura səviyyəsi üzrə yeni dövlət standartları ilə təhsil verən ilk mərkəzdir. Hal-hazırda mərkəzdə "İqtisadiyyat və idarəetmə" ixtisasları üzrə 11 ixtisas və 39 ixtisaslaşma üzrə 1200-ə yaxın magistrant azərbaycan, ingilis, rus və türk dillərində təhsil alır. Onların arasında dünyanın müxtəlif ölkələrindən (Almaniya, Çin, Banqladeş, Rusiya, Misir, Küveyt, BƏƏ, Səudiyyə Ərəbistanı, Nepal, Liberiya və s.) olan 20-yə yaxın magistrant da vardır. Mərkəzdə tədrisin keyfiyyətli şəkildə təşkili üçün "İqtisadiyyat və idarəetmə" kafedrası yaradılıb. Tədris prosesində universitetin professor və müəllim heyəti ilə yanaşı dünyanın nüfuzlu universitetlərinin məzunu olan, eyni zamanda, özəl və dövlət sektorunda zəngin iş təcrübəsinə sahib mütəxəssislər də iştirak edir. BMDM-də əsas məqsəd özəl və dövlət sektorunun ehtiyaclarını ödəyə biləcək kadrlarla bərabər, ölkənin iqtisadiyyat və elm həyatına töhfələr verəcək tədqiqatçı gənclər yetişdirməkdir. Mərkəz tədris prosesini bu məqsəd əsasında formalaşdırmaqdadır. Bütün görülən işlərin nəticəsidir ki, 2018/2019-cu tədris ilinin qəbul nəticələrinə əsasən, iqtisadiyyat və idarəetmə ixtisaslarına qəbul olunmuş hər iki tələbədən biri BMDM-i seçib. Qeyd etmək lazımdır ki, 2017/2018-ci və 2018/2019-cu tədris illəri üzrə magistratura pilləsinə qəbulun nəticələrinə əsasən respublika birincisi olmuş bakalavrlar magistr təhsili üçün UNEC – BMDM-i seçiblər. Magistrantlarımız tədris müddətində dünyanın müxtəlif ölkələrində yerləşən universitetlərlə mübadilə proqramlarında və ya xarici ölkə universitetləri ilə bağlanmış müqavilələr əsasında ikili diplom proqramlarında iştirak edə bilər. BMDM-də yeni və beynəlxalq standartlara cavab verən tədris planlarının tətbiqi magistrantlarımız üçün geniş imkanlar yaradır.

MƏRKƏZİN STRUKTURU



MƏRKƏZİN MİSSİYASI

Beynəlxalq Magistratura və Dokorantura Mərkəzi olaraq, əsas missiyamız müasir tələblərə cavab verən mütəxəssislər və peşəkar kadrlar hazırlamaq, o cümlədən respublikamızda, habelə regionda və qlobal arenada ən qabaqcıl elmi, iqtisadi və innovativ mərkəzlərdən biri olmaq, milli şüura sahib, tənqidi düşünən, etik dəyərlərə diqqət yetirən, insan hüquqlarına və ətraf mühitin mühafizəsinə həssas, yaradıcı və yenilikçi, elmi, ictimai və mədəni dünyagörüşü və özünəinamı ilə sahib olduğu peşənin və ictimai məsuliyyətin öhdəsindən uğurla gələ biləcək tədqiqatçı mütəxəssislər yetişdirməkdir.

MƏRKƏZİN MƏRAMI

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin məramı beynəlxalq standartlara cavab verən, akademik, elmi və mədəni fəaliyyətləri ilə daha parlaq bir gələcəyin formalaşmasında iştirak edən, savadlı və bacarıqlı, tədqiqatçı mütəxəssislər yetişdirən, yenilikləri, davamlı təkmilləşməni və yaradıcı düşüncəni situmullaşdıran dünya şöhrətli təhsil qurumları arasında yer almaq.

MƏRKƏZİN DƏYƏRLƏRİ

Bizim dəyərlərimiz müdafiə etdiyimiz prinsipləri əks etdirir və UNEC-in ümumi dəyərləri ilə üst-üstə düşür. Onlar bizim nə üçün mövcud olduğumuzu müəyyən edir və gündəlik qərarlarımızda bizə yol göstərir. Mərkəz öz missiyasını layiqli şəkildə yerinə yetirmək və müəyyən olunmuş niyyətləri reallığa çevirə bilmək naminə aşağıdakı dəyərlərə sadiqdir.

Akademik azadlıq: UNEC və onun nəzdində BMDM üzvləri tədqiqat, tədris və sosial xidmət fəaliyyətlərində elmi prinsiplərə sadiqdirlər.

Akademik etika: UNEC və onun nəzdində BMDM öz fəaliyyətində akademik etikanı qoruyur və müəlliflik hüququna hörmətlə yanaşır.

Layiqlik: UNEC və onun nəzdində BMDM akademik inzibati vəzifələrin tutulmasında hər kəs üçün bərabər imkanlar yaradır və daha layiq olana üstünlük verir.

Mükəmməllik: UNEC və onun nəzdində BMDM üzvləri bütün fəalliyyətlərində daim daha mükəmməl olanı əldə etməyə çalışır.

Şəffaflıq: UNEC və onun nəzdində BMDM fəaliyyətlərini bütün maraqlı tərəflərin müşahidəsinə açıq şəkildə həyata keçirir.

Keyfiyyətlilik: UNEC və onun nəzdində BMDM fəalliyyətlərində yüksək keyfiyyət prinsipinə sadiq qalır.

İştirakçılıq: UNEC və onun nəzdində BMDM səmərəli idarəetmə naminə üzvlərinin idarəetmənin bütün mərhələlərində aktiv iştirakını təmin edir.

Fərqliliklərə hörmət: UNEC və onun nəzdində BMDM bütün maraqlı tərəflərin fərqli fikirlərinə hörmətlə yanaşır.

Cəmiyyətin mənafeyini düşünmək: UNEC və onun nəzdində BMDM bütün fəaliyyətlərini, ilk növbədə, cəmiyyətin mənafeyini düşünərək həyata keçirir.

Ekoloji həssaslıq: UNEC və onun nəzdində BMDM üzvləri dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunmasına səy göstərir.

Niyə BMDM?

MAGİSTRANTA FOKUSLANMIŞ TƏDRİS PROSESİ

- Dərslər həftənin yalnız ilk üç günündə (bazar ertəsi, çərşənbə axşamı, çərşənbə) keçirilir
- Dərslər 18:40-da başlayır
- Cəmi 2 semestr aktiv dərs
- Hər semestr üzrə 5 aktiv dərs
- Tədqiqat yönümlü dərslər
- Dissertasiya işi üçün bir il zaman
- Yeni standartlarda tədris proqramları
- Dörd dildə (azərbaycan, ingilis, türk və rus) təhsil
- Sosial tədbirlər və müəllimlərlə səmimi mühit

TƏCRÜBƏLİ VƏ XARİCDƏ TƏHSİL ALMIŞ AKADEMİK HEYƏT

- Dünyanın nüfuzlu MIT, Harvard, LSE, Warwick Business School, Edinburg, Surrey, Exter, Stirling, King's College London, Illinois, Durham, Korea Development Institute kimi universitetlərinin məzunları
- AR Prezident Administrasiyası, AR Maliyyə Nazirliyi, AR Təhsil Nazirliyi, ARDNF, SOCAR, AR Mərkəzi Bankı, BP Azərbaycan, Kapitalbank, AG Bank kimi həm özəl, həm də dövlət sektoru qurumlarının ekspertləri

BEYNƏLXALQ ARENAYA ÇIXIŞ

- Erasmus, Mevlana, DAAD və s. proqramlarda iştirak imkanı
- Xarici universitetlərin yay və qış məktəblərində iştirak imkanı
- Fransa, İsveçrə, Yunanıstan universitetləri ilə ikili diplom proqramları
- Xarici universitetlərdən ikinci elmi rəhbərin seçilməsi imkanı
- Xarici universitetlərdə tədqiqat aparmaq və təcrübə imkanları
- Dünyanın nüfuzlu universitetlərinin professorları tərəfindən "master-classlar"
- Beynəlxalq elmi konfrans və jurnallarla sıx əməkdaşlıq
- Türkiyənin nüfuzlu universitetlərində doktorantura təhsili almaq imkanı

GENİŞ KARYERA İMKANLARI

- Dövlət qurumlarında təcrübə və iş imkanı
- Özəl sektorda parlaq karyera imkanları
- Özəl sektorun tələblərinə uyğun tədqiqat işləri
- Dövlət sektoru tərəfindən sifarişli tədqiqat işləri
- Özəl sektor şirkətləri tərəfindən təlim və seminarlar
- Dövlət qurumları tərəfindən təlim və seminarlar
- Ölkənin nüfuzlu CEO, CFO və menecerləri tərəfindən dərslər

STRATEJİ MƏQSƏD VƏ HƏDƏFLƏR

BMDM-in missiya və məramında göstərilənləri həyata keçirmək üçün strateji məqsədlər və bu məqsədlərə nail olmaq üçün hədəf və istiqamətlər müəyyənləşdirilmişdir. Bu strateji məqsəd və hədəflər "UNEC – 100" İnkişaf Strategiyasına uyğun şəkildə müəyyənləşdirilmişdir.

STRATEJİ MƏQSƏD 1 – MAGİSTR TƏHSİLİ ÜZRƏ KEYFİYYƏTİ İLƏ SEÇİLƏN TƏHSİL MƏRKƏZİNƏ ÇEVRİLMƏK
Hədəf və istiqamətlər:
Magistratura pilləsi üzrə yeni tədris planlarının, müasir tədris və tədqiqat metodlarının tətbiqinin genişləndirilməsi.
Mərkəzin professor-müəllim heyətinin akademik bacarıqlarının artırılması.
Tədris və tədqiqat prosesinə dünyanın nüfuzlu ali təhsil müəssisələrinin məzunu olmuş geniş praktiki iş təcrübəsinə sahib şəxslərin cəlb olunması.
Mərkəzin akademik heyətinin beynəlxalq mübadilə, təcrübə və post-doktorantura proqramlarında iştirakının stimullaşdırılması.
Mərkəzdəki magistratura pilləsi üzrə təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçirilməsi.
Tədris prosesinə xarici universitetlərin professor və müəllimlərinin cəlb olunması ilə bağlı fəaliyyətlərin genişləndirilməsi.
Magistratura tədrisi zamanı innovativ və beynəlxalq təcrübədə sınanmış imtahan-qiymətləndirmə metodlarından istifadənin daim təkmilləşdirilməsi.

STRATEJİ MƏQSƏD 3 – BEYNƏLXALQ ƏLAQƏLƏRİN GÜCLƏNDİRİLMƏSİ
Hədəf və istiqamətlər:
Dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə magistratura pilləsi üzrə "İkili Diplom" proqramlarının sayının artırılması.
"Erasmus +", "Erasmus Mundus", "Mevlana" və.s kimi beynəlxalq mübadilə proqramlarında magistrantların və inzibati heyətin iştirak imkanlarının genişləndirilməsi.
Mərkəzdə daimi olaraq xarici dillərdə tədrisin həyata keçirildiyi yeni ixtisas və ixtisaslaşmaların açılması.
Əcnəbi magistrantların mərkəzdəki mühitə inteqrasiyasının sürətləndirilməsi.

STRATEJİ MƏQSƏD 2 – TƏDQİQAT YÖNÜMLÜ TƏHSİL MƏRKƏZİNƏ ÇEVRİLMƏK.
Hədəf və istiqamətlər:
Müasir tədqiqat metodlarının tətbiq edilməsi ilə magistr elmi işlərinin keyfiyyətinin yüksəldilməsi.
Dissertasiya işlərinin praktiki tətbiq imkanlarının genişləndirilməsi məqsədi ilə ölkənin nüfuzlu dövlət və özəl sektor qurumlarından sifarişli, aktual və ölkə iqtisadiyyatına töhvələr verəcək mövzuların sayının artırılması.
Mərkəzin akademik və magistrant heyətinin “Web of Science” , “SCOPUS” kimi beynəlxalq elmi platformalarda elmi işlərinin nəşrinin təşviq olunması.
Mərkəzin akademik və magistrant heyətinin “Web of Science” , “SCOPUS” kimi beynəlxalq elmi platformalarda elmi işlərinin nəşrinin təşviq olunması
Mərkəzdə tədqiqat imkanlarının genişləndirilməsi məqsədi ilə müxtəlif iqtisadi istiqamətli araşdırma-tədqiqat mərkəzlərinin və laboratoriyalarının yaradılması.
Mərkəzin yerli və beynəlxalq tədqiqat mərkəzləri ilə əlaqələrinin genişləndirilməsi.
Yerli və beynəlxalq qurumların elan etdiyi elmi tədqiqat layihələrində iştirakın artırılması.
Mərkəzin təşkilatçılığı ilə yerli və beynəlxalq miqyaslı elmi konfrans və tədbirlərin təşkil edilməsi.
Mərkəz tərəfindən iqtisadiyyat və idarəetmə istiqamətləri üzrə beynəlxalq indeksli elmi jurnalın yaradılması.

STRATEJİ MƏQSƏD 4 – BMDM – İN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİNİN VƏ İMİCİNİN DAVAMLI YÜKSƏLDİLMƏSİ
Hədəf və istiqamətlər:
Mərkəzin müəllim və magistrant heyətinin ölkənin sosial iqtisadi həyatında fəal iştirakının artırılması.
BMDM – in fəaliyyətinin davamlı olaraq ənənəvi və müasir informasiya vasitələrində işıqlandırılması.
Ali təhsilin bakalavr pilləsində təhsil alan tələbələr arasında mərkəzin təbliğatının genişləndirilməsi.
Beynəlxalq və yerli təşkilatlarla birgə qlobal əhəmiyyətli korporativ sosial məsuliyyət layihələrində mərkəzin iştirakının həyata keçirilməsi.
Magistrantlar üçün müxtəlif dövlət və özəl sektor qurumlarında təcrübə və iş imkanlarının yaradılmasına dəstək.
Mərkəzin məzunları üçün geniş məzun platformasının yaradılması və onlarla davamlı görüşlərin keçirilməsi.

İQTİSADİYYAT VƏ İDARƏETMƏ KAFEDRASI

Mərkəzdə tədris, təcrübə və tədqiqat prosesinin effektiv şəkildə idarə olunması məqsədi ilə 2017-ci ildən etibarən "İqtisadiyyat və idarəetmə" kafedrası fəaliyyət göstərir. Kafedranın professor-müəllim heyəti 29 nəfərdən ibarətdir. Eyni zamanda kafedrada saathesabı qaydada 100-ə yaxın müəllim tədris aparır ki, onların da arasında UNEC-in müəllimləri ilə yanaşı iş dünyasından gələn nüfuzlu və təcrübəli peşəkarlar vardır. Kafedrada ixtisaslar üzrə proqram rəhbərləri fəaliyyət göstərirlər. Onlar tədrisin keyfiyyətinə nəzarət edir və eyni zamanda magistrantların problemlərinin operativ şəkildə həlli ilə məşğul olurlar. Tədqiqat prosesinin gedişində magistranların ortaya çıxan problemlərinin həlli üçün məsləhət saatları təşkil edilir.

BMDM-də TƏDRİS PROSESİ

Magistrantın birinci tədris ili

İyun	Magistratura pilləsi üzrə qəbul imtahanlarında müvəffəq nəticə göstərən magistrantların ixtisas seçimi
İyul	Mərkəzə qəbul olmuş magistrantların sənədlərinin qəbulu
Avqust	Boş qalan plan yerləri üzrə a ixtisas seçiminin ikinci mərhələsi və sənəd qəbulu
Sentyabr	Magistrantlar fərdi tədris planlarını doldurarak payız semestri üzrə tədrisə başlayırlar.
Oktyabr	"Dissertasiya təklifi forması"nı elmi rəhbərin imzası ilə birlikdə təsdiqlənməsi üçün "İqtisadiyyat və İdarəetmə" kafedrasına təqdim edirlər.
Noyabr	Magistrantların semestrdaxili qiymətləndirilməsi məqsədi ilə ara imtahanlar təşkil olunur.
Dekabr	Magistrantlar müəllim tərəfindən öncədən elan olunmuş semestr layihələrini qiymətləndirmək üçün fənn müəlliminə təqdim edirlər.
Yanvar	Magistrantların payız semestri üzrə final imtahanları təşkil olunur.
Fevral	Magistrantlar ehtiyac yaranarsa fərdi tədris planlarında düzəliş edərək yaz semestri üzrə tədrisə başlayırlar.
Mart	Yaz semestri üzrə tədris davam edir.
Aprel	Magistrantların semestrdaxili qiymətləndirilməsi məqsədi ilə ara imtahanlar təşkil olunur.
May	Magistrantlar müəllim tərəfindən öncədən elan olunmuş semestr layihələrini qiymətləndirmək üçün fənn müəlliminə təqdim edirlər.
İyun	Magistrantların yaz semestri üzrə final imtahanları təşkil olunur.

BMDM-də TƏDRİS PROSESİ

Magistrantın ikinci tədris ili

Sentyabr	Magistrantlar fərdi tədris planlarını doldurarak ikinci tədris ilinin payız semestri üzrə təcrübə və tədqiqata başlayırlar.
Oktyabr	"Tədqiqatlar, kommunikasiya və innovasiya" fənni üzrə nəzərdə tutulmuş dissertasiya üzərində işin gedişi haqqında 5 səhifəlik I hesabatın təqdim olunması (Əlavə 2). Eyni zamanda elmi-pedaqoji təcrübənin həyata keçirilməsi.
Noyabr	Magistrantların elmi-tədqiqat təcrübələrinin başlanması.
Dekabr	"Tədqiqatlar, kommunikasiya və innovasiya" fənni üzrə nəzərdə tutulmuş dissertasiya üzərində işin gedişi haqqında 5 səhifəlik II hesabatın təqdim olunması.
Yanvar	Magistrantlar ehtiyac yaranarsa fərdi tədris planlarında düzəliş edərək yaz semestri üzrə tədqiqata başlayırlar.
Fevral	"Tədqiqat işinin aparılması" fənni üzrə nəzərdə tutulmuş dissertasiya üzərində işin gedişi haqqında 5 səhifəlik III hesabatın təqdim olunması.
Mart	Magistrantlar tədqiqat işinin aparılması ilə məşğul olurlar.
Aprel	"Tədqiqat işinin aparılması" fənni üzrə nəzərdə tutulmuş dissertasiya üzərində işin gedişi haqqında 5 səhifəlik IV hesabatın təqdim olunması.
May	Magistr dissertasiyaları tam hazır şəkildə plagiat sistemində yoxlanılması məqsədi ilə "İqtisadiyyat və İdarəetmə" kafedrasına təqdim olunur.
İyun	Magistr dissertasiyalarının müdafiə olunması üçün komissiyalar formalaşdırılaraq, təhsilin bütün plan və proqramlarını yerinə yetirmiş magistrantların müdafiələri təşkil edilir.
İyul	Magistr dissertasiyasının müdafiəsini uğurla başa çatdırmış magistrantların məzun olmaları haqqında əmr verilir

DƏRS PROSESİ

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində magistrantlara tədris edilən dərslərin keyfiyyətinə xüsusi nəzarət olunur. Dərslərdə magistrantlara yalnız nəzəri deyil, eyni zamanda praktiki biliklərin qazandırılması məqsədi ilə tədris prosesinə iş dünyasının nüfuzlu şəxsləri cəlb olunur. Bu şəxslərdən bəziləri Mərkəzdə tədris həyata keçirir, digər hissəsi isə qonaq spikerlər olaraq dərslərdə iştirak edir, magistrantlarla təcrübələrini paylaşır və onlara məsləhətlər verirlər. Hər ixtisaslaşma üzrə Payız semestrində 5 və Yaz semestrində 5 fənn olmaqla ümumilikdə 10 fənn tədris olunur. Fənlərin tədrisi zamanı magistrantlar layihələr hazırlayır, "beyin hücumu", keys analizləri edir, təhlillər aparır və "ziqzaq", "karusel", "skeç", "rol oynama", "altı şapqa" kimi metodlardan istifadə olunur. Bunlardan əlavə, magistrantlara daha faydalı olması üçün tədris real proqram təminatları üzərindən həyata keçirilir və SPSS, Eviews, STATA kimi proqram paketləri öyrədilir. BMDM-də dərslər saat 18:40-dan 21:30-dək keçirilir ki, bu da magistrantlara işdən ayrılmamaqla təhsillərini artırmağa imkan verir.

TƏCRÜBƏ PROSESİ

Mərkəzdə magistrantlar artıq tədrisin üçüncü və dördüncü semestrlərində aktiv şəkildə dərslərdə iştirak etmirlər. Tədrisin ikinci ili daha çox magistr tədqiqatının aparılmasına, magistrantların pedaqoji və tədqiqat bacarıqlarının artırılmasına yönəldilmişdir. Bu istiqamətdə tədrisin üçüncü semestrində elmi-pedaqoji və elmi-tədqiqat təcrübələri təşkil olunur. Təcrübə prosesində magistrantlar elmi rəhbərləri olan müəllimlərlə birgə tədris prosesində, iş dünyasından olan elmi rəhbərlərin dəstəyi ilə müxtəlif qurumlarda iş prosesində iştirak edirlər. Əsas məqsədlərindən biri universitetlərimiz üçün potensial kadrlar yetişdirmək olan Mərkəzin magistrantları universitetimizdə müəllimlərin rəhbərliyi altında sərbəst qaydada mühazirələr deyir və seminarlar aparırlar. Eyni zamanda, magistrantlar tədqiqat işləri ilə bağlı təqdimatlar edirlər və bu təqdimatar müəllim komissiyası tərəfindən qiymətləndirilir. Bundan əlavə, Mərkəz tərəfindən hər həftə magistrantlar üçün master-klaslar təşkil olunur. Bu master-klaslarda həm yerli, həm də xarici ölkələrin nüfuzlu elm adamları, eyni zamanda, müxtəlif sahələr üzrə magistrantlara faydalı məlumatlar çatdıran mütəxəssislər iştirak edirlər. Onlar görüşlərdə gələcək akademik və iş dünyası karyeraları ilə bağlı dəyərli məsləhətlərini paylaşır və magistrantları maraqlandıran sualları cavablandırırlar.

İMTAHAN PROSESİ

Mərkəzdə magistrantların biliyinin qiymətləndirilməsində əsas yeri imtahanlar tutur. İmtahanlar beynəlxalq standartlara uyğun olaraq ara imtahan (kollokvium) və semestr (final) imtahanından ibarət olub, yazılı qaydada təşkil edilir. Magistrantlara ənənəvi metodlarla deyil, daha müasir və magistrantın analitik qabiliyyətini üzə çıxara biləcək metodlarla imtahan vermək imkanı yaradılır. Belə ki, imtahan prosesində daha çox keys analizlərinə, iqtisadi və riyazi təhlillərə, praktiki məlumatlara əsaslanan, real həyat nümunələrindən və sərbəst fikir yürütməyə imkan yaradan suallardan istifadə olunur. Müəllimlər imtahan qorxusunun aradan qaldırılması üçün magistranlarla iş aparırlar. İmtahan nəticələri 3 gün ərzində yoxlanılaraq elan olunur. Nəticələr elan olunduqdan sonra imtahanın nəticəsindən narazı olan hər bir magistrant sərbəst qaydada apellyasiya müraciəti edə bilər. Müraciət əsasında magistrantın da iştirakı ilə açıq apellyasiya təşkil olunur.

TƏDQİQAT İŞİNİN APARILMASI

Magistratura təhsilinin ən əsas hissəsi, əlbəttə ki, tədqiqat işidir. Mərkəzdə tədqiqat işlərinin keyfiyyətli şəkildə aparılması üçün ciddi addımlar atılmışdır. Belə ki, dünyanın nüfuzlu ali təhsil müəssisələrinin təcrübəsi əsas götürülərək dissertasiya üzərində işin gedişi ilə bağlı hesabatlılıq mexanizmi hazırlanmışdır. Hesabatlılıq mexanizminə əsasən, magistrantlar hər iki aydan bir, semestrdə iki dəfə olmaqla dissertasiya üzərində işin gedişi haqqında elmi rəhbərə hesabat təqdim edirlər. Hesabatlar elmi rəhbərlər tərəfindən qiymətləndirilir və bu barədə "İqtisadiyyat və İdarəetmə" kafedrasına məlumat verilir. Hesabatının nəticələri qeyri-müvəffəq olan magistrantlar dissertasiya işinin müdafiəsinə buraxılmırlar.

Tədqiqatın keyfiyyətli aparılması üçün magistrantlar anket sorğuları aparır, ekonometrik modellərdən istifadə edir, statistik analizlər aparır, proqram təminatlarından istifadə edərək emprik analizlər ortaya qoymağa çalışırlar. Magistrantlara dissertasiya mövzusunu və elmi rəhbəri sərbəst seçmək imkanı yaradılmışdır. Elmi rəhbərlər magistrantlara tədqiqat prosesinin istənilən mərhələsində tövsiyələrini verir, keyfiyyətli iş ərsəyə gətirmək üçün dəstək göstərirlər. Eyni zamanda, ölkəmizin müxtəlif dövlət qurumlarından (AR Prezident Aparatı, AR Maliyyə Nazirliyi, AR Mərkəzi Bankı, KOBİA, AR Ticarət və Sənaye Palatası, AR Maliyyə bazarlarına Nəzarət Palatası, ASAN xidmət, AR İqtisadiyyat Nazirliyi, AR Kənd Təsərrüfatı Nazirliyi, AR Vergilər Nazirliyi, ARDNF, SOCAR və s.) və özəl sektor qurumlarından tədqiqat işlərinin mövzuları üzrə sifarişlər toplanaraq seçim üçün magistrantlara təqdim olunur.

Magistrantlar təhsilin 2-ci ilinin hər semestrində iki dəfə olmaqla dissertasiya işi üzrə görülmüş işlər barədə elmi rəhbərə müvafiq formada dörd hesabat təqdim edirlər. Hər bir hesabat elmi rəhbər tərəfindən 4, 5, 6 və 7 saylı əlavələrdə göstərilmiş müvafiq meyarlar üzrə qiymətləndirilir. Hesabatlar üzrə yekun qiymət meyarlar üzrə verilən balların cəmi kimi hesablanır. Hər bir meyar üzrə qiymətləndirmə 10 ballıq şkala üzrə aparılır.

I və II hesabatların yekun qiymətlərinin cəmi “Tədqiqatlar, kommunikasiya və innovasiya” fənninin, III və IV hesabatların yekun qiymətlərinin cəmi isə “Tədqiqat işinin aparılması” fənninin yekun göstəricisi kimi qəbul olunur.

Hesabatların qəbulunda ardıcıllığa riayət olunur: əvvəlki hesabat təqdim edilməyibsə, növbəti hesabatın qəbuluna və qiymətləndirilməsinə yol verilmir. Hər hansı hesabatı təhvil verməyən və ya qeyd olunan iki fəndən hər hansı biri üzrə yekun nəticəsi 51 baldan az olan magistrantın həmin fənn üzrə akademik borcu yaranır. Magistrantın tədqiqat prosesi tam şəkildə növbəti səhifələrdə göstərilmişdir.

Tədqiqat işinin hazırlanması zamanı magistrantlar tədqiqat apardıqları mövzularla bağlı elmi məqalə və məruzələr hazırlayaraq müxtəlif beynəlxalq elmi konfrans və jurnallarda nəşr etdirirlər. 2018/2019 tədris ilində magistrantlarımızın 4 elmi məqaləsi nüfuzlu Web of Science platformasına daxil olan elmi məruzə kitablarında nəşr olunmuşdur.

DİSSERTASİYA MÖVZUSUNUN VƏ ELMİ RƏHBƏRİN SEÇİLMƏSİ

Universitetin ixtisas kafedralarından, eyni zamanda, müxtəlif dövlət qurumlarından və özəl sektor təmsilçilərindən aktual dissertasiya mövzuları və elmi rəhbərlik edəcək şəxslər barədə məlumatlar "İqtisadiyyat və İdarəetmə" kafedrasında toplanır (Əlavə 1).

Mərkəzdə toplanmış dissertasiya mövzuları və elmi rəhbərlər haqqında məlumatlar magistrantlara təqdim edilir. Magistrantlar uyğun mövzunu və elmi rəhbəri seçdikdən sonra elmi rəhbərin imzası ilə "Diseertasiya təklifi forması"nı doldurarak Mərkəzin "İqtisadiyyat və idarəetmə kafedrası"nın müvafiq ixtisas üzrə proqram rəhbərinə təqdim edir (Əlavə 2). Magistrantlar mövzu və elmi rəhbər seçimində sərbəstdirlər.

Magistrantlar tərəfindən təqdim olunmuş təklif formaları "İqtisadiyyat və idarəetmə kafedrası"nda müzakirə olunur, ehtiyac yarandıqda mövzu adlarında zəruri redaktələr edilərək magistrantlar və elmi rəhbərlərlə razılaşdırılaraq dəqiqləşdirilmiş siyahı təsdiq edilməsi üçün Mərkəzə göndərilir (Əlavə 3).

Universitet rektoru dissertasiya mövzularının və elmi rəhbərlərin göstərildiyi siyahı haqqında qeydlərini edir və bundan sonra sənəd əmrləşdirmək üçün Tədris Metodiki Mərkəzə yönləndirilir. Bu Mərkəzdə son redaktələr edildikdən sonra sənəd əmrləşdirilir və bununla da dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi ilə bağlı proses yekunlaşır.

DİSSERTASİYA İŞİNİN HAZIRLANMASI PROSESİ

I hesabatda dissertasiya işinin strukturlaşmış ilkin planı, istifadə olunacaq ədəbiyyatın ilkin siyahısı, tətbiq olunacaq metodlar barədə məlumatlar əks olunur. Magistrant I hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini təhsilin ikinci ilinin oktyabr ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirmə aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən formanı (əlavə 4) və hesabatı oktyabrın 25-dək kafedraya təqdim etməlidir.

II hesabatda mövzunun aktuallığını, problemin qoyuluşunu və öyrənilmə səviyyəsini, tədqiqatın məqsəd və vəzifələrini, tədqiqatın nəzəri-metodoloji əsaslarını və istifadə olunacaq tədqiqat metodlarının əsaslandırılmasını əks etdirən ümumiləşdirilmiş müddəalar verilməli, istifadə olunmuş ədəbiyyat siyahısı əlavə olunmalıdır. II hesabat dissertasiya işinin 1-ci fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant II hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (1-ci fəsli) təhsilin 2-ci ilinin dekabr ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirmə aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən formanı (əlavə 5) və hesabatı dekabrın 25-dək kafedraya təqdim etməlidir.

III hesabatda seçilmiş tədqiqat metodlarının tətbiqində imkan və məhdudiyyətlərə, tədqiqatın informasiya bazasına, əldə edilən nəticələrə dair məlumatlar əks etdirilməlidir. III hesabat dissertasiya işinin 2-ci fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant III hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (2-ci fəsli) təhsilin 2-ci ilinin fevral ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirməni aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən formanı (əlavə 6) və hesabatı fevral ayının 25-dək kafedraya təqdim etməlidir.

IV hesabatda tədqiqatın nəticələrinin sintezi, qoyulmuş problemin həlli üçün tədqiqatın nəticələri ilə əsaslandırılmış mülahizə və təkliflər, bu nəticələrin elmi-praktiki əhəmiyyəti və tətbiq sahələri barədə ümumiləşdirilmiş məlumatlar verilməlidir. IV hesabat dissertasiya işinin 3-cü fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant IV hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (3-cü fəsil, nəticə və təkiflər) təhsilin ikinci ilinin aprel ayının 10-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirmə aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən formanı (əlavə 7) və hesabatı aprelin 15-dək kafedraya təqdim etməlidir.

Magistrant dissertasiyanın müəyyən edilmiş tələblərə uyğun şəkildə tərtib edilmiş yazılı nüsxəsini və dissertasiyanın qısa məzmununu əks etdirən referatı (IV hesabatı təqdim etdikdən sonra) aprelin 20-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər dissertasiyanın tam məzmunu ilə tanış olmalı, dissertasiyanın qiymətləndirilməsini əlavə 8-də göstərilmiş formada aparmalı, qiymətləndirmə blankının bir nüsxəsini aprelin 30-dək kafedraya, digərini isə magistranta təqdim etməlidir.

DİSSERTASİYA İŞİNİN MÜDAFİƏSİ PROSESİ

Elmi rəhbərdən rəsmi qaydada imzalı şəkildə dissertasiya işinin müdafiəyə buraxılması ilə bağlı müsbət rəy almış magistrantlar dissertasiyalarını plagiat yoxlanışından keçirilməsi üçün "İqtisadiyyat və İdarəetmə kafedrası"na təhvil verirlər. Plagiat şərtlərini ödəməyən magistrantlara yenidən dissertasiya işində düzləlişlər edilməsi üçün 15-30 gün müddətində vaxt verilir. Dissertasiya işi plagiat şərtlərini ödəyən magistrantlar isə plagiatdan keçdikləri barəsində sənəd verilir.

Magistrantlar üçün dissertasiya işinin müdafiəsinə hazırlıq məqsədi ilə ilkin müdafiə təşkil olunur. Dissertasiya işinin ilkin müdafiəsindən sonra magistrantlar ilkin müdafiə ilə bağlı protokol çıxarışını aldıqdan sonra dissertasiya işinin müdafiəsinə buraxılırlar.

Magistrantların dissertasiyalarının müdafiəsi məqsədi ilə Universitet rektorunun müvafiq əmri ilə müdafiə komissiyaları yaradılır. Bu komissiyalar komissiya sədri, sədr müavini, katib və dörd nəfər üzvdən ibarət olur. Magistranta dissertasiya işi haqqında 10-15 dəqiqəlik təqdimat etmək imkanı yaradılır. Eyni zamanda bu müddət ərzində magistranta müdafiə etdiyi mövzu ilə bağlı suallar verilir. Daha sonra komissiya üzvləri əlavə 9-da verilmiş formada magistrantın dissertasiyasını qiymətləndirərək komissiya sədrinin və katibinin imzası ilə birlikdə Mərkəzə təqdim edirlər. Müvəffəq nəticə almış magistrantların siyahısı "Magistr" diplomunun verilməsi haqqında təqdimat formasında Universitet rektoruna göndərilir. Əmrdan sonra artıq magistrant məzun olmuş sayılır.

TƏDQİQAT MƏRKƏZLƏRİ

Mərkəzdə magistrantlar üçün tədqiqat mühitinin yaxşılaşdırılması və müxtəlif sifarişli tədqiqat işlərinin həyata keçirilməsi məqsədi ilə tədqiqat mərkəzləri yaradılmaqdadır. Hazırda mərkəzdə Azərbaycan Sığortaçılar Assosasiyasının təşəbbüsü ilə Sığorta Məktəbi yaradılmışdır ki, məktəbin rəhbəri Mərkəzin dosenti, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdadfiəsi nazirinin müşaviri Mustafa Abbasbəylidir. Bundan başqa Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA) ilə UNEC arasında bağlanmış əməkdaşlıq memorandumu əsasında BMDM-də Kiçik və Orta Biznesin Tədqiqatları Mərkəzi yaradılmışdır. Mərkəzdə KOBİA tərəfindən tələb olunan tədqiqat layihələri və KOB sahəsində tədqiqat işləri həyata keçirilir. BMDM-in əsas hədəflərindən biri tədqiqat mərkəzlərinin sayını ildən-ilə artırmaqdan ibarətdir.

KARYERA İMKANLARI

Magistrantların karyeralarını inkişaf etdirmək məqsədi ilə Mərkəz müxtəlif qurumlar tərəfindən təlimlər, işə qəbulla bağlı məsləhət saatları, müxtəlif dövlət və özəl qurumlara iş prosesinin yaxından izlənməsi üçün səfərlər təşkil edir. Bundan əlavə, müvafiq qurumlar tərəfindən Mərkəzdə işə qəbul və işçi seçimi aparılır. Cari tədris ilində "Əmrahbank" ASC, "Rabitəbank" ASC, "Sinergy Group", "Gilan Holding" və s. kimi yerli şirkətlərlə yanaşı, dünyanın nüfuzlu KPMG, "Delloite" audit şirkətlərinə və dövlət sektoru qurumlarına işçi seçimi üçün imtahan və müsahibələr təşkil edilmiş, magistrantlar işlə təmin olunmuşdur. Eyni zamanda, BMDM magistrantlarına dünyanın müxtəlif ölkələrində təcrübə imkanları da təqdim olunur.

İŞ DÜNYASI İLƏ ƏLAQƏLƏR

Mərkəzin əsas məqsədlərindən biri də, təbii ki, Universitetlə iş dünyası arasında əlaqələrinin gücləndirilməsidir. Bu istiqamətdə müxtəlif qurumlarla əməkdaşlıq həyata keçirilir və müqavilələr bağlanır. BMDM-in AR Gənclər Fondu, AR Ticarət və Sənaye Palatası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "Pasa Holdinq", ARDNF kimi qurumlarla qarşılıqlı əlaqələri mövcuddur. Bu istiqamətdə Mərkəzin təşkilatçılığı ilə UNEC-in texniki imkanlarından istifadə edilməklə ölkənin müxtəlif regionlarında sahibkarlara on-line təlimlər təşkil olunur.

İNKLÜZİV TƏHSİL

Son illərdə UNEC-də inklüziv təhsilə mühüm əhəmiyyət verilir. Burada əsas məqsəd fiziki qüsuru, əlilliyi olan tələbələri akademik fəaliyyətə daha effektiv cəlb etmək və onlara özlərini cəmiyyətin məhsuldar fərdləri kimi hiss etməyi aşılamaqdır. Həmin tələbələr üçün geniş təhsil imkanları və pozitiv sosial mühit yaradılaraq onların akademik həyata aktiv şəkildə qoşulması təmin edilir. Mərkəzdə inklüziv təhsilə ehtiyacı olan magistrantlara xüsusi diqqət və qayğı göstərilir, onların tədris və imtahan prosesinə xüsusi həssaslıqla yanaşılır. Məqsədimiz fiziki məhddudiyyəti olan magistrantların həyatdakı maneələri dəf etməsinə yardımçı olmaq, digər təhsil ocaqlarına nümunə göstərməkdir. Belə magistrantlardan biri - Amin Hüseynzadə "Baku Expo 2025" esse müsabiqəsinin qalibi olmuşdur.

MƏRKƏZİN TƏRƏFDAŞLIQ ETDİYİ KONFRANSLAR VƏ JURNALLAR

UNEC BMDM beynəlxalq akademik dairlərlə əlaqələr yaratmaq və bu əlaqələrdən faydalanmaq məqsədi ilə bir çox beynəlxalq elmi konfrans və jurnallarla tərəfdaş və təşkilatçı kimi əməkdaşlıq edir. Mərkəz iqtisadiyyat və idarəetmə ixtisasları üzrə magistrantların 2019-cu ildə ilk dəfə keçiriləcək beynəlxalq elmi konfransının təşkilatçısıdır. Mərkəz bir çox beynəlxalq elmi jurnallarla da əməkdaşlıq edir ki, bunların da əksəriyyəti beynəlxalq reytinqlərdə indekslənir.



BMDM-in BEYNƏLXALQ ƏLAQƏLƏRİ

Universitetin beynəlxalq arenaya açılan pəncərəsi olmaq məqsədini qarşısına qoymuş Mərkəz bu istiqamətdə əlaqələrini daha da gücləndirmək üçün fəal iş aparır. Beynəlxalq mübadilə proqramlarında magistrantların iştirakının təmin edilməsi, xarici ölkə universitetlərinin magistratura pillələri ilə ikili diplom əlaqələrinin qurulması və xarici tələbələrin Mərkəzə cəlb olunması bu istiqamətdə mühüm addımlardır.

Mübadilə proqramları

UNEC BMDM magistrantları və akademik heyət onlar üçün yaradılan imkanlardan istifadə edərək xarici ölkə universitetləri ilə sıx şəkildə mübadilə proqramlarında iştirak edirlər.

Avropanın müxtəlif ölkələrinin (Almaniya, Macarıstan, Bolqarıstan, Türkiyə, İtaliya, Rumıniya, Slovakiya, İngiltərə, Fransa və s.) ali təhsil müəssisələrində bir semestr təqaüdlü təhsil almaq imkanı yaradan "Erasmus+" belə proqramlardan ən önəmlisidir. Son iki ildə Mərkəzin 10-a yaxın magistrantı həmin mübadilə proqramında iştirak etmişdir.

Mərkəz magistrantlarının faydalana biləcəyi "Mövlana" mübadilə proqramı magistrantlar üçün Türkiyənin 30-a yaxın nüfuzlu universitetində bir semestr təqaüdlü təhsil imkanı yaradır. Magistrantlar müvafiq dil biliklərinə görə ingilis və ya türk dillərində tədrisi seçə bilərlər. Geridə qalan iki tədris ilində 8 magistrant "Mövlana" proqramı ilə Türkiyədə təhsil almışdır.

UNEC ilə Almaniyanın Siegen Universiteti arasında bağlanan qarşılıqlı əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilən mübadilə proqramı magistrantlar üçün yaradılan digər imkanlardan biridir. Ötən tədris ilində Siegen Universitetində təhsil almaq üçün seçilmiş UNEC tələbəsi Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin magistrantıdır.

Qeyd etmək lazımdır ki, Mərkəzdə tətbiq olunan yeni və beynəlxalq standartlara cavab verən tədris planları və onların AKTS-ə tam şəkildə uyğunluğu magistrantların mübadilə proqramlarında rahat bir şəkildə iştirakını və tələbə mobilliyini təmin edir.

İkili diplom proqramları

BMDM dünyanın nüfuzlu universitetləri ilə magistr və MBA təhsili üzrə ikili diplom və mübadilə proqramları həyata keçirir.

UNEC-də Litvanın Mikolas Romeris Universiteti və İsveçrənin UBİS (University of Business and International Studies) Universiteti ilə ikili diplom proqramları reallaşdırılır. BMDM bu istiqamətdə digər nüfuzlu ali təhsil müəssisələri ilə də əməkdaşlığı genişləndirir. Belə ki, UNEC-də ABŞ-ın Linkoln Universiteti ilə MBA, Türkiyənin Uludağ Universiteti, Türkiyənin Süleyman Dəmirəl Universiteti, Fransanın İCD Paris Biznes Məktəbi, Montpellier Universiteti ilə magistratura səviyyəsi üzrə ikili diplom proqramlarının həyata keçirilməsi nəzərdə tutulub. UNEC-in ikili diplom proqramlarına qoşulan tələbələrin sayı da ildən-ilə artmaqdadır.

MYKOLAS ROMERIS UNIVERSITY

Əcnəbi Magistrantlarımız

UNEC BMDM-də Almaniya, Türkiyə, Rusiya, Çin, Tailand, Nepal, Banqladeş, Svazilend, Qambiya, Qazaxıstan, BƏƏ, Küveyt və s. ölkələrdən magistrantlar təhsil almaqdadırlar. Hər ötən il Mərkəzdə təhsil alan xarici magistrantların sayı artmaqda davam edir.

Son 3 tədris ili üzrə BMDM-də təhsil alan əcnəbi magistrantların sayı artmışdır. Belə ki, 2016/2017-ci tədris ilində Mərkəzdə 6 əcnəbi magistr təhsil alırdısa, bu rəqəm 2017/2018-ci tədris ilində 9 nəfərə, 2018/2019 tədris ilində isə 13 nəfərə yüksəlmişdir.

Əcnəbi abituriyentlər cabinet.unec.edu.az saytı vasitəsilə ixtisas və tədris dili seçərək tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təhsil almaq hüququnu qazanırlar.

Əcnəbi vətəndaşlardan müvafiq sənədlərlə yanaşı tövsiyə məktubu da tələb olunur.

SOSİAL TƏDBİRLƏR

Universitetdə təhsil almaq və dərəcə əldə etməklə yanaşı, magistrantların fəal sosial həyata sahib olması da vacib amil hesab edilir. Universitetdəki sosial fəaliyyətlərdə iştirak etmək magistrantlara maraqlı təcrübələr qazandırır, dərslərdən kənarlaşıb yeni dostlar qazanmağa kömək edir və hətta şəxsi keyfiyyətlərinin inkişaf etdirilirməsinə də töhfə verir.

Yeni İl və Novruz Bayramı kimi əlamətdar günlərdə magistrantlar üçün xoş və əyləncəli tədbirlər təşkil olunur. Tədbirlərdə müəllimlər və Mərkəzin İdarə Heyətinin üzvləri də iştrak edirlər. Belə tədbirlər, eyni zamanda, magistrantlarla rəhbərlik və müəllim heyəti arasında bir körpü, qeyri-rəsmi ünsiyyət forması rolunu oynamış olur.

Mərkəzdə yalnız bayramlarda deyil, eyni zamanda, müxtəlif əlamətdar günlərdə də tədbirlər təşkil olunur.

7/24 Kitabxana

2018-ci ilin mart ayından UNEC-in kitabxanası “7 gün / 24 saat” rejimində fəaliyyət göstərir. Kitabxana binası üç mərtəbədən ibarət olmaqla ümumi sahəsi 290 kv.m. təşkil edir. Kitabxana 2 oxu zalından və elektron kitabxanadan yararlanmaq üçün 24 kompüterlə təchiz olunmuş 1 zaldan ibarətdir. Oxu zalları mütaliə üçün spesifik işıqlandırma və havalandırma sistemləri, həmçinin rahat oturacaqlarla təchiz edilmişdir. Kitabxana eyni vaxtda 104 tələbəyə xidmət göstərmək potensialına malikdir.

Rəf üslubunda tərtib olunmuş kitabxananın ixtisaslaşmış zəngin kitab fondu vardır. Axtarış sistemi elektron kataloq əsasında qurulmuş və bunun üçün xüsusi proqram təminatı tətbiq edilmişdir. Elektron kitabxananın fondu zənginləşdirilmiş və müəllif hüquqları qorunmaqla tələbələrin istifadəsinə verilmişdir.

Azərbaycanın digər universitetlərinin elektron kitabxanalarına giriş təmin edilmişdir. Hazırki infrastruktur tələbələrimizin dünya səviyyəli universitetlərin kitabxanalarından istifadəsinə şərait yarada bilər.

Kitabxana tələbələrin rahatlığı üçün pulsuz internet, sürətli kitab skaneri və printerlərlə təchiz edilmişdir. Kitabxana prosesləri tam avtomatlaşdırılmışdır. Kitabxana EBSCO və Thomson Reuters elektron resurslarına abunə olunmuşdur. Universitetin daxili İntranet şəbəkəsində kitabxananın açıq istifadəsi təmin edilmişdir. Kitabxanada yüksək təhlükəsizlik sistemləri quraşdırılmış, istifadəçilər üçün açıq havada xüsusi guşə yaradılmışdır.

BMDM Rəhbərlik

